Azad Azərbaycan

3 iyun / 2021

# Anam qocalmasın heç zaman, Allah

*(Qürbətdə yaşayan gənclərə)*

Ömür ötür, günlər necə tez keçir,
Anamın saçları ağarır, vallah.
Özüm qocalsam da, dözərəm dərdə,
Anam qocalmasın heç zaman, Allah.

Bir səhər anamla görüşə gəldim,
Çəməndən ətirli gül-çiçək dərdim.
Görəndə anamı neçə kövrəldim,
Anam qocalmasın heç zaman, Allah.

Anamdı varlığim, şöhbətim, sözüm,
Anamdı nəfəsim, görən cüt gözüm.
O nurlu çöhrənə qurbanam özüm,
Anam qocalmasın heç zaman, Allah.

Gözləri yollara dikilib, qalıb,
Qəhərdən gör necə xəyala dalıb.
Alnı qırış olub, çöhrəsi solub,
Anam qocalmasın heç zaman, Allah.

Aldanma qürbətin qönçə gülünə,
Öz dilini satma özgə dilinə.
Gedərəm bir yolluq doğma elimə,
Anam qocalmasın heç zaman, Allah.

Ana laylasını çıxarma yaddan,
Sənə doğma olmaz özgədən, yaddan.
Yeməyinin ətrin duyaram daddan,
Anam qocalmasın heç zaman, Allah.

Gör necə sevinir, məni görəndə,
Dünyanı verirlər oğlu gələndə.
Ömrümdən pay verim, deyib, güləndə,
Anam qocalmasın heç zaman, Allah.

Rauf sədəf düzər dürr söz sətrindən,
Doymadı heç zaman ana ətrindən.
Çələng toxuyaram güllər çətrindən,
Anam qocalmasın heç zaman, Allah,
Anam qocalmasın heç zaman, Allah.



Rauf İLYASOĞLU